TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ

22 MAY 2016-cı il BAZAR № 110 (5561) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET

# Dinamik tərəqqi Heydər Əliyev siyasi kursunun mükəmməlliyinin məntiqi nəticəsidir

**Müasir Azərbaycan regionun qüdrətli, davamlı innovativ inkişaf edən ölkəsidir. Bu irəliləyiş və səviyyə ümummilli lider Heydər Əliyevin siyasi-iqtisadi strateji kursunun həyata keçirilməsi nəticəsində baş verib. Öz müstəqilliyini 25 il əvvəl bərpa etmiş Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi əsaslıdır, möhkəmdir və hərtərəfli inkişafı ulu öndərin müəyyənləşdirdiyi strategiya sayəsində təmin edilir. Bu inkişaf səviyyəsinin bünövrəsi birmənalı şəkildə demək lazımdır ki, sovetlər döründə, ulu öndər tərəfindən respubikaya ilk rəhbərliyi zamanı qoyulmuşdur.**



Xalqının böyük oğlu, fenomen şəxsiyyət, uzaqgörən siyasətçi Heydər Əliyevin Azərbaycan xalqı, dövləti qarşısında o dövrdəki xidmətləri barədə onun layiqli siyasi varisi Prezident İlham Əliyev demişdir: “Əgər biz onun Azərbaycana rəhbərliyə gəldiyi tarixlərə nəzər salsaq, görərik ki, həm 1969-cu və həm də 1993-cü illərdə onun rəhbərliyə gəlişindən sonra Azərbaycanda bütün proseslər müsbət istiqamətdə inkişaf etməyə başlamışdır. 1969-cu ilə qədər Azərbaycan Sovet İttifaqında ən geridə qalmış respublika kimi tanınırdı. Respublikada sənaye potensialı çox aşağı səviyyədə idi. Digər göstəricilər də ən aşağı səviyyədə idi. Heydər Əliyev kimi güclü liderin Azərbaycanın rəhbərliyinə gəlməsindən sonra köklü dəyişikliklər baş vermişdir. Onun Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində Azərbaycan Sovet İttifaqı çərçivəsində ən inkişaf etmiş və qabaqcıl respublikaya çevrilmişdir. O vaxt Sovet İttifaqında cəmi iki respublika özünü təmin edirdi və Ümumittifaq büdcəsinə töhfələr verirdi. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda güclü sənaye potensialı yaradılmışdır ki, sonra — müstəqillik dövründə bu potensial bizə böyük dərəcədə kömək etmişdir”.

SSRİ kimi fövqəldövlətin görkəmli dövlət xadimi olan, hakimiyyət ustası kimi şöhrət qazanmış, müdrik siyasətçi kimi tanınan və hər bir sadə vətəndaşın sevdiyi Heydər Əliyev dövlət quruculuğunda iqtisadiyyatın əsas təməl prinsip olduğunu əla bilirdi. Müstəqillik şəraitində isə yeni iqtisadi formasiyaya keçilməsi üçün ölkənin əsas sərvəti, dünyanın maliyyə, sənaye qurumlarının və super dövlətlərinin maraq dairəsində olan karbohidrogen ehtiyatlarının hasilatına, ixracına beynəlxalq investisiyanı cəlb etmək mühüm əhəmiyyət kəsb edirdi. Əldə edilən vəsaiti real iqtisadiyyatın inkişafına və çoxşaxəliliyin təmininə yönəldilməsi həyati əhəmiyyətə malikdir. Dahi dövlət xadiminin fəal, dinamik xarici siyasəti nəticəsində milli neft strategiyası hazırlandı. Bu strategiya nəinki Azərbaycanın neft sənayesini dirçəltməyi, həm də Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının Azərbaycan ərazisi vasitəsilə Avropaya çıxarılmasını, qitə dövlətlərinin enerji təhlükəsizliyinin təmininə yeni stimul verməyi nəzərdə tuturdu. Bu birgə hasilat və ixracat Azərbaycanı regionda transmilli ölkəyə çevirməklə yanaşı, onun nüfuz və qüdrətinin artmasına da əsas zəmin idi. Bu prosesdə Azərbaycanın qüdrət sahibi olacağı, regionda lider dövlətə çevriləcəyi aydın idi. Buna görə də həmin layihənin reallaşmasının çox güclü beynəlxalq əleyhdarları vardı. Onlar bütün siyasi, diplomatik qüvvə ilə Heydər Əliyevin neft strategiyasının həyata keçməsinə mane olmağa çalışırdılar. Bu təzyiq həm dövlət, həm də müəyyən beynəlxalq təşkilatlar səviyyəsində idi. Lakin Heydər Əliyevin fenomen intelekti, dövlətlərin maraq dairəsini görməsi, transmilli korporasiyaların mənafelərini ölkənin mənafeləri ilə uzlaşdırması, məharətli, müdrik, uzaqgörən siyasi gedişləri ilə bütün manеələr dəf edildi. Onun balanslaşdırılmış dahiyanə siyasəti təhdidləri zərərsizləşdirdi. 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə “Əsrin müqaviləsi”nin imzalanması həmin dahiyanə siyasi-diplomatik gedişlərin nəticəsi idi. Beləliklə, Azərbaycan MDB məkanında, Xəzər dənizi hövzəsində ilk beynəlxalq transmilli strateji, iqtisadi, siyasi əməkdaşlığın bünövrəsini qoydu. Artıq həmin tarixi müqavilənin imzalanmasından 22 il keçir. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkəmiz bu gün çox böyük siyasi, iqtisadi uğurlar əldə edib. Ən önəmlisi odur ki, bütün ölkələr öz enerji təhlükəsizliyini təmin etmək üçün enerji daşıyıcılarının və mənbələrinin çoxşaxəliliyinə nail olmağa, etibarlı tərəfdaşla əməkdaşlıq etməyə çalışırlar. Artıq Azərbaycan neft və qazını dünya bazarına şaxələndirilmiş sistemlə çatdıran, etibarlı hasilatçı və ixracatçıdır. Şaxələndirilmiş neft-qaz ixrac kəmərləri sistemi Heydər Əliyevin iqtisadi-siyasi müstəvidə müdrikliklə, məharətli siyasi gedişlərinin məntiqi nəticəsidir. Hazırda Azərbaycan nefti Bakı-Tbilisi-Ceyhan, Bakı-Novorossiysk, Bakı-Supsa kəmərləri, qazı isə Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz Əsas ixrac qaz kəməri ilə dünya bazarına nəql olunur. Bu şaxələndirilmiş kəmərlər sistemi Heydər Əliyevin misilsiz siyasi-iqtisadi əsəridir desək, yanılmarıq. Şərqi Asiyadan tutmuş Qərbin ən aparıcı dövlətlərini və transmilli qurumların bir araya gətirən nəhəng layihələr Azərbaycanın bir dövlət kimi geosiyasi əhəmiyyətini təsdiq edib və ölkəmizin transmilli layihələrin əsas təşəbbüskarı olduğu dünyanın ən mühüm kürsülərində və tədbirlərində də etiraf edilməkdədir. Əgər TANAP və TAP qaz boru kəmərləri layihələrini də əlavə etsək, həm enerji ixracatçısı, həm də tranzit ölkə kimi ölkənin beynəlxalq enerji bazarında nə kimi mühüm mövqe qazandığı aydın olar. Ötən müddət həm də Azərbaycanın Avrasiya iqtisadi məkanında ən mühüm təhlükəsiz enerji dəhlizi olmasını da sübut etmişdir.

Azərbaycanın karbohidrogen ixracındakı uğurlarından biri də təbii qazın dünya bazarında satışı sahəsindədir. “Şahdəniz” qaz-kondensat yatağı dünyanın ən iri mənbələrindəndir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş olduğunu Rusiya və Ukrayna arasında yaşanan münaqişə nəticəsində qitədə yaranmış enerji təchizatında böhranlı vəziyyətin aradan qaldırılmasında oynadığı rol bir daha sübut edir. Heydər Əliyev karbohidrogen ehtiyatlarının ölkələrin iqtisadi inkişafında, dünya bazarında oynadığı mühüm rolu çox gözəl bilir və perspektivdə yanacaq təhlükəsizliyinin dövlətlərin sosial-iqtisadi həyatında rolunun daim artacağını da aydınca gördü. Təcrübəli dövlət xadimi və siyasətçi kimi, gələcəyə hesablanmış neft strategiyasında hər bir perspektivi zərgər dəqiqliyi ilə hesablamışdı. Dövlətin iqtisadi, siyasi, sosial inkişaf prioritetlərini bir nöqtədə — iqtisadi və siyasi müstəqilliyin möhkəmləndirilməsində birləşdirən Heydər Əliyevin strateji kursu bu gün ölkə başçısı İlham Əliyev tərəfindən həyata keçirilən mükəmməl, ən müasir bir konsepsiyadır desək, səhv etmərik.

(davamı 2-ci səhifədə)